# Postmüharibə dövrünün sosial dəstək paketi

***Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, ölkəmizdə genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir. Bu tədbirlər çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan 7 min 969 şəxsə 15 min 922 sosial ödəniş (Prezidentin təqaüdü, sosial müavinət, pensiya), həmçinin 2 min 772 müharibə iştirakçısına əlillik və 5 min 544 sosial ödəniş təyin olunub. Cari ilin ilk rübündə "Müharibə veteranı" adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdünün təyinatına da başlanılıb və proses yekunlaşıb.***

Qeyd edək ki, həmin sosial ödənişlərin vətəndaşların müraciəti olmadan və onların sənədlər təqdim etmələrinə ehtiyac qalmadan, elektron sistem üzərindən proaktiv qaydada təyinatı həyata keçirilir. Prezident İlham Əliyevin fərman və sərəncamları ilə şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği də həm 2021-ci ildə, həm 2022-ci ilin əvvəlindən əhəmiyyətli dərəcədə artırılıb.

Həyata keçirilən islahatlar çərçivəsində mühüm sosial dəstək tədbirlərindən biri də şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatıdır. Bu proqram 2021-ci ildə 5 dəfə genişlənib. Ötən il şəhid ailələri və müharibə əlillərinə 3 min, 2022-ci ilin əvvəlindən daha 200 mənzil, postmüharibə dövründə isə 3200 mənzil verilib. Ümumən, ötən dövrdə 12 min 500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Bundan başqa, həmin dövrdə müharibə əlillərinin avtomobillə təminatı tədbirləri də davam etdirilib. 2021-ci ildə daha 164 nəfər müharibə əlilinə minik avtomobili təqdim edilib və bu günədək 7 min 400 nəfər müharibə əlili avtomobillə təmin olunub.



Onu da qeyd edək ki, postmüharibə dövründə şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər də daxil olmaqla, 11 minə yaxın şəxsin aktiv məşğulluq proqramlarına, o cümlədən, 6,5 min şəxsin özünüməşğulluq proqramına cəlb olunması təmin edilib. Bu il 1 aprel tarixinə "Məşğulluq marafonu"na 627 işəgötürən qoşularaq 4365 vakansiya təqdim edib və marafon üzrə artıq 2 minə yaxın şəxs işlə təmin olunub. Həmçinin 8 minə yaxın şəxsə 23 minədək sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, 1337 müharibə əlilinə 16 min 413 reabilitasiya vasitəsi verilib. Dövlət başçısının göstərişi ilə 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı protezlə təminatına başlanıb ki, bu proqram üzrə 270 nəfər müharibə əlili yüksək texnologiyalı 290 ədəd müasir – 4-cü nəsil protezlə təmin edilib.

Şəhid ailələrinə, müharibədə yaralanmış hərbi qulluqçulara mərkəzi və rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən 26 istiqamətdə xidmətlərin "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edildiyi vahid əlaqələndirmə mərkəzlərində 26 min şəxsə xidmətlər göstərilib. Sosial dəstək çərçivəsində birdəfəlik maddi yardımla, ərzaq dəstəyi ilə təminat işləri də aparılıb. Ümumilikdə, postmüharibə dövründə hazırda da davam edən sosial dəstək tədbirləri 1 aprel 2022-ci il tarixə şəhid ailələri üzvləri, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkənlərdən ibarət 100 minədək şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib.




Son illərdə əmək, məşğulluq, sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində elektronlaşdırma proqramı çərçivəsində 30 elektron arayış növü istifadəyə verilib. Bu ilin yanvar – mart aylarında nazirliyin fəaliyyət sahələri üzrə 193 min 86 elektron arayış verilib. Bu e-xidmətlər vətəndaşların iş yerinə və ya əlilliyə dair, pensiya, müavinət və təqaüd, maddi yardım, ünvanlı yardım, dövlət tərəfindən mənzil və avtomobillə təmin edilmə, fərdi şəxsi hesab və s. barədə elektron qaydada arayış əldə etmələrinə imkan verir. Hazırda elektron sistemlərin 31 qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlar tərəfindən ilin birinci rübündə nazirliyin informasiya bazalarına arayış üçün edilən müraciətlərin sayı 55 milyon 446 min 674 olub.

Xatırladaq ki, nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin bu il fevralın 1-dən fəaliyyətə başlayan "Qayğı" Çağrı Mərkəzinə son iki ayda mindən çox müraciət olub. Müraciətlər əsasən mənzil və avtomobil təminatı, psixoloji dəstək, məişət zorakılığına məruz qalmış şəxslərə dəstək, müəssisələrə və mərkəzlərə qəbul qaydaları, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, övladlığagötürmə, eləcə də Sosial Xidmətlər Agentliyinin digər fəaliyyət istiqamətlərinə aid olub. Çağrı Mərkəzinə daxil olan hər bir müraciət qeydiyyata alınaraq araşdırılıb və aidiyyəti üzrə yönləndirilib. Vətəndaşlara müraciətlərinə uyğun sosial xidmətlərin, dəstəyin göstərilməsi təmin edilib. Həmçinin sorğu xarakterli müraciətlərlə bağlı ətraflı məlumatlar verilib.




ƏƏSMN-nin e-sosial.az portalına isə bu ilin əvvəlindən daha 4 milyon 445 mindən çox müraciət qeydə alınıb. 2019-cu ildən istifadəyə verilən portal ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat və s. üzrə) çıxış imkanı yaradır. Vətəndaş onun barəsində portalda toplanmış məlumatları mütəmadi izləyə bilməklə yaranan sosial-əmək hüquqlarının təminatına ictimai nəzarəti həyata keçirmək imkanına malikdir. Xatırladaq ki, "Android" və "İOS" əməliyyat sistemlərində fəaliyyət göstərən portalda qeydiyyatdan keçən aktiv istifadəçilərin sayı da artmaqda davam edir. Hazırda bu rəqəm 1 milyon 155 min 283-ə çatıb.

Qeyd edək ki, Dünya Bankı ilə birgə icra edilən "Azərbaycanda Məşğulluğa Dəstək Layihəsi" üzrə daha bir qrup şəxs aktivlərlə təmin olunaraq onlar üçün kiçik bizneslər yaradılıb. Özünüməşğulluq proqramına dəstək məqsədi daşıyan layihə çərçivəsində işsiz şəxslərə istehsal-xidmət sahəsi üzrə avadanlıqlar təqdim edilib. Bununla da proqram çərçivəsində aktivlərlə təmin olunan şəxslərin sayı 1785-ə çatıb. Diqqətə çatdıraq ki, layihəyə cəlb olunanların mühüm bir qismi müharibə iştirakçıları, şəhid ailələrinin və aztəminatlı ailələrin üzvləridir. Proqram 22 min işsiz şəxsin özünüməşğulluq proqramına cəlb olunmasını və onların kiçik biznesə çıxışını təmin etməyi nəzərdə tutur.

Dövlət Məşğulluq Agentliyi tərəfindən işsiz və işaxtaran şəxslər üçün təşkil edilən hazırlıq kurslarının əhatə etdiyi peşə-ixtisas sahələri sırasına əmək bazarında aktual olan daha 50-yə yaxın sahə əlavə edilib. Beləliklə, peşə tədrisi həyata keçirilən peşə-ixtisas sahələrinin sayı 127-dən 175-ə çatdırılıb. Əmək bazarının təhlili əsasında formalaşan yeni aktual peşə və ixtisasların siyahısına İKT sahəsi, nəqliyyat logistika, kənd təsərrüfatı, istehsal, sənaye, rabitə və digər sahələr daxildir. Peşə hazırlığına cəlb olunmaq istəyən şəxslər yaşadıqları ərazi üzrə Regional Məşğulluq Filiallarına və ya "DOST" Mərkəzlərinə yaxınlaşmaqla qeydiyyatdan keçə bilərlər. Onu da deyək ki, peşə hazırlığına cəlb olunmuş işsiz şəxslərə təhsil aldıqları dövrdə minimum aylıq əməkhaqqı məbləğində təqaüd ödənilir.




ƏƏSMN-dən bildiriblər ki, "Əmək Münasibətləri və Məşğulluq" altsisteminin (ƏMAS) hazırlanması işləri artıq başa çatır. Gələn ayın əvvəlindən bu e-platformanın istifadəyə verilməsi nəzərdə tutulur. Bu altsistem bütün işəgötürənlər və işə qəbul olunanlar üçün vahid əmək münasibətləri platforması rolunu oynayacaq və rəqəmsal kadr uçotu sisteminin qurulmasını təmin edəcək. Yeni e-platforma həm işəgötürənlər, həm də işçilər, eləcə də işsiz və işaxtaran şəxslər üçün mühüm dəstək olacaq. İşəgötürənlərin kadr məsələləri ilə bağlı işlərinin daha çevik və rahat yerinə yetirilməsini dəstəkləyəcək ƏMAS məşğulluq xəritəsini, həmçinin məşğulluq reyestrini formalaşdırmağa, elektron birja və elektron peşə təliminə də şərait yaradır. Altsistem işsiz və işaxtaran şəxslərin aktiv məşğulluq proqramlarına əlçatanlığını daha da artırmaqla, onların bu proqramlara cəlb olunması prosesinin daha operativ təşkilinə imkan verəcək. Əməyin təşkili və mühafizəsində beynəlxalq standartların tətbiqi, əməyin ödənilməsində qanunvericiliyin tələblərinin gözlənilməsi və s. məsələlərdə də altsistem öz dəstəyini göstərəcək.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*